Ata baba Sözl**əri**

♠ A ♠

Aynaya nasıl baxsan özünü hayla görərsən

At – at il**ə savaşar , arada eşəyin qıçı sınar**

Ata oğula bir bağ verdi , oğul ataya bir salxımda vermədi

Ata olmayan ata d**əyərin bilməz**

At öl**əndə yəhəri qalar , adam öləndə adı**

Ac **adamı qurd yeməz**

Ac qudurğan olar , çılpaq oynağan

♠ Ə ♠

Ət dırnaqdan ayrılmaz

Ət gətirməmiş küftə istəyir

Əcəl gülləsi bir dənə olar

Ər atanı el atar , ər dutanı el dutar

Ər çöldə olsun çörəyi evdə

Əkmayin var işin işdir yoxsa əkmək sənə işdir

Əl - **əli yuvar , əl dönər üzü yuvar**

♠ E ♠

Erk**əksəndə doğ dişisəndə**

Erm**əni dığası kimi böyüdükcə əyri işəyir**

Erm**əni dini yaxşıdır , qiyamətdə po...**-u çixmasa

Erm**əni qan gördü**

El d**əlisin çölə atmaz**

El atan daş uzağa düşər

El gücü – sel gücü – yel gücü

♠ O ♠

Ot kökü üst**ə bitər**

Otura - **otura ozanın evi yıxılar , gəzə** - g**əzə culfanın**

O tök**əni bu yığışdırıb**

Ocaqdan kül **əskik olmaz**

Ox ki qurturldu yay g**ərək gedə**
(Yay : kaman)

Oxun atır yayın gizlədir

Od h**ər yana düşürsə özünə yer a**çar

♠ U ♠

Ucuz **ətin şorbası olmaz**

Ucuzdan bahası olmaz

Uzaq yerin sözü çox olar

Uzun şişəl yandırmaz

Uşaq yıxıla – yıxıla böyüyər

Uşağa iş de get dalısıca

Utan utanmazdan

♠ Ü ♠

Ürək **yansa gözdən yaş çıxar**

Üzüm ağ anlım açıq

Üzümü unl**u görüb adımı deyirmançı səsləmə**

Üzlü daş yerdə qalmaz

♠ Ö ♠

Öz gözündə **dirəyi görməyir özgə gözündə çöpü görür**

Özgə **atına minən tez düşər**

Özgəyə **quyu qazan özü düşər**

Özünü yorulmuş bilirsən yoldaşini ölmüş bil

Ölçməmiş biçmə

Öküzü yorulana çox söz deyərlər

Ölüm qaşınan göz arasındadır

♠ İ ♠

İp nəqədər də uzun olsa dolanar yuvarıqdan keçər

İlanın zəhləsi yarpuzdan gedər oda yuvasının önündə bitər
(yarpuz tülküyə **oxşar ondan kiçik cənəvar)**

İstədi qaşını düzəldə vurdu gözünü çıxartdı

İş – işi göstərər

İşləyən dəmiri pas basmaz

İki ağız bir olsa bir ağız heç olar

İlanın qənimi balasıdır

♠ I ♠

Islanmışın yağışdan nə dərdi var ?

Işıqlı cücə yumurtada bəlli olar

♠ B ♠

Başmaq palçıqsız olmaz

Başına daşda salırsan uca yerdən sal

Bu qırqına xanda dözməz

Boş damardan qan çıxmaz

Baş böyük oldu nə fayda , içində ki beyni gərək olsun

Baş yaman cəllad əlindədir , nə kəsir nə bağışlayır

Balığı haçan dutsan yenidir

♠ P ♠

Para adama ağıl örgədər

Palaza bürün el il**ə sürün**

P**ambıqçının ağ köpəkdən acığı gələr**

Pambıqla baş kəsir

Pıçaq öz dəstəyin kəsməz

Pıçaq vursan qanı çıxmaz

Pişikin dərdi köpəyi öldürər

♠ T ♠

Taxmamış taqqıladayır

Tarı eşşəyi tanıyıtrdı ki buynuz vermədi

Tarı bilər kim qazana kim yeyə

Tarı sənə balam deyib

Tay başıdır

Təbrizin yayı qışdır qışı qamışdır

Tox dey**ər acalmaram ac deyər toxalmaram**

♠ C ♠

Can bir qalıbdılar

Calasan günü günə **ötən günə çatanmazsan**

Canı canan yolunda deyən çoxdur qıyan az

Cəhənnəmə gedən özünə yoldaş arar

Cüc**ənin toydada başın kəsərlər yasdada**

Cücə **anasından süd görməyib**

Cüc**əni güzdə sayarlar**

♠ Ç ♠

Çirağ-çirağdan yanar

Çağırılan yerə ərinmə çağırılmayan yerdə görünmə

Çalışmaq çarıq yırtar

Çirkin b**əzənincə toy keçər**

Çəmçə aşdan isti oldu !?

Çupuğu yaşilən akmək gərək

Çox adam d**ədəsini kor etdi ki Kor Oğlu desinlər**

♠ H ♠

Hadaran – **padaran danışır**

Hamı qurtulmuşdu həmərsin satan qalmışdı

H**ər enişin bir yoxuşu var**

Heç kims**ə adama quş dutmaz**

H**ərə öz qoturun qaşıyır**

H**ər qarpız ayaqlayanın qıçı sınmaz**

H**ər qaranlığın bir aydınlığı var**

♠ X ♠

Xala evin**ə dadanan ər evinə yarar verməz**

Xaladan ist**əyirik versədə xaladı verməsədə**

Xanım sındıran qabın səsi çxmaz

Xeyr istə **qonşuna xeyr gəlsin başına**

Xalqa köpə**klər hürəndə bizədə ağzı bağlı küçüklər hürür**

Xoruzun l**ələyi görükür**

Xoruz yoxuydu s**əhər açılmırdı ?**

♠ D ♠

Dadanan il**ə quduranı saxlamaq olmaz**

Dadanmısan dolmaya bəlkə bir gün olmaya

Dartılmamış dəni var

Dağlar nə gədər uca olursada üstündən yollar aşar

Dalınca mumlu şəm yollamışam !?

D**əli elsiz ,el dəlisiz olmaz**

D**əli** - d**əlini görəndə çomağın gizlədər**

♠ Z ♠

Z**əhmətsiz bal yeyilməz**

Zora dağlar dayanmaz

Zırnanı gen başından püfləyir

Zülmün sonu olmaz

Zırnaçi bir nəfəs alar

♠ S ♠

Saman altından su calır

Sarala-sarala ölm**ək qızara-qızara qalmadan yaxşıdır**

Suyun lam axanı adamın yerə baxanı

S**əhər gününə qızmayan , axşam günündə qızmaz**

Seksan – doxsan bir gün yoxsan

S**əndən kor it xeyr görmməyib**

S**ən ağa mən ağa inəkləri kim sağa !?**

♠ Ş ♠

Şah bil**ər şah sevər bilər**

Şah çiçək şıxardıb

Çah g**əldisindən keçdi**

Şirincə gəl şirincə get

Şəm özü yanar başına kül savurar ki bir kəpənəyi yandıra

Şeytan atına minib

Şeytan ilə darı əkmişik

♠ F ♠

Fələyin bir çuval qızılı var hər gün birinin çiynind**ədir**

Fələyə çörək aparır

Fışqıraq ilə öküz zəmidən şıxmaz

♠ Q ♠

Qapıdan qovursan bacadan gəlir

Qaçanda tanrını çağırar qovanda

Qarqalar m**ənim toyuğumdur yumurtasını görmərəm , nə fayda !**

Qılınc yarası sağalar ürək yarası sağalmaz

Qurd **əti qurda haramdır**

Qurd- qurda dal çevirm**əz**

Qurd üzü oğurlu olar

♠ K ♠

Kürt aşı qılsız olmaz

Kiçik daşda baş yarar

Kəssək oturub daş üçün ağlayır

Kor koru tapar , su çuxuru

Köçən , yurdunun görkəmin qonaq yurdda bilər

Kişi olan tupurduyun yalamaz

Kişinin sözü çıxınca canı çıxsın

♠ G ♠

Gətirəndə el gətiri yel gətiri sel gətiri

Geçi can hayındadir qassab yağ axtarır

Gəzən ayaqa daş dəyər

Gəldik xoya yetişdik toya

Gəl bu daşları ətəyindən tok

Gələn ilə yoldaşdır gedən ilə qardaş

Gülü istəyən tikanıda istəmək gərək

♠ L ♠

Lalın dilin nənəsi bilər

Lay-lay bilirsən neyə yatmırsan

Ələ köçüb yurdu qalıb

Lanı xoruzlar yağ bağlar qarışqalar bağ bağlar

♠ M ♠

Mal yiyəsinə oxşayar

Mama iki olsa uşaq tərsə gələr

Mırdar əski od dutmaz

Mınğa dedilər çirağı püflə

Məçid yapılmamış kor qapını aldı

Mən motaldan əl çəkdim , motal məndən əl çəkmir

Min işçidən bir başçı

♠ N ♠

Naxır kökündən gedib bu ala dana axtarır

Nasıl baxım gözüm gəlin gözünə oxşasın ?!

Nə umursan bacıdan bacın olur acıdan

Neyləyirəm qızıl çanaq ki içində qan qusam ?

Nə yer istəyir səni nə göy

Nə yatdıq nə uzandıq hazır oğlan qazandıq

Nə əksən onu biçərsən

♠ V ♠

"Vacibi" buraxıb "müstəhəb" ardıca gedir

Var evi k**ərəm evi , yox evi vərəm evi**

Vay ondadur xan qapısın kürt ala

V**əryanı suya verdin ?**

Verdiyin bir yumurta onuda yırta yırta

Verdin doyur - **vırdın yıx**

Vırıcı quş dimdiyindən bəlli olar

♠ Y ♠

Yatar-**yatar başı şişər duranda bitin axtarı əti verər pişiyə qonşunun itin axtarı**

Yat**ma tülkü daldasında qoy yesin aslan səni**

Yaxşı yoldaş qardaşdan irəlidir

Yaxşı yoldaş yaman gündə bəlli olar

Yaxşıları yer tanıyar

Yağmurdan qaçan doluya dütülar

Yağmurdan qurtulduq damcıya ras kəldik